## ƏKRƏM CƏFƏRDƏN

### "Azərbaycan" qəzetinin baş redaktoru Sabir Rüstəmxanlıya açıq məktub

"Azərbaycan qəzetinin 03.10.1989-cu il tarixli nömrəsində "Redaktordan" başlıqlı məqaləni oxuyuram, amma istəmirəm bunu oxuyub bitirim. Yavaş-yavaş və aramla, yubana-yubana oxuyuram. Ortasına çatmışam. Bir az dayanıram. Amma qurtarmasın bu məqalə. Uzansın, bir kitaba dönsün bu məqalə. Mən ha oxuyum-oxuyum, amma o bitməsin, sona çatmasın, deyirəm. Bitsə, sona çatsa, yenidən başlayaram bunu oxumağa təkrar-təkrar, içimdəki bu hissiyyat dalğalarını yenidən dalğalandıraram bu təlatüm içində. Bu kədərlərdən axıb gələn zövqü itirmək mənə dərd olar.

Oxu, Əkrəm, oxu, yenə oxu, amma qurtarma. Belə ürək çalxalanmasını, hissiyyat daşqınlığını indiyə qədər mən yalnız dahi türk şairi Əbdülhəq Hamidin "Məqbər" adlı əsərinin müqəddiməsini oxuyarkən duymuşam. Belə ruhi xəlazan məndə bir də Şekspirin və sevdiyim Viktor Hüqonun əsərlərini oxuduğum zaman olmuşdur.

Bu məqalə, bu həyat mənzərələri qəlbimdə bir zəlzələyə səbəb oldu. Böyük Sabirin dili ilə desəm, naxələf nabəhşüurların, bivicdan, bimürvətlərin kefli ruhlarında bu zəlzələ, bu vəlvələ yaradırmı? Yoxsa onlar yenə Sabir demiş: "Ay alan, məmləkəti-Rey satı-

ram"ı xatırlayaraq: Ay alan, vicdan, qeyrət satıram! Ay alan, millət, vətən satıram, – deyirlər.

Görəsən, Sabir Rüstəmxanlının bu əzəmətli pamfletinə bir nəzirə yaza bilən adam, yazıçı, şair tapılarmı bizdə? Bu böyük vəzifəni ifa etməyin öhdəsindən – əgər dirilsəydi və bizim indiki dövr tariximizi görüb yaşasaydı – yalnız böyük Hophop gələ bilərdi.

Görəsən, xalqı, milləti, bu müsibətlərdən xilas edəcək bir şəxs, bir qəhrəman, bir dahi, bir peyğəmbər zühur edəcəkmi?

Mən Sabir Rüstəmxanlıya bu açıq məktubu yazandan sonra məqaləsini bir də oxudum. Əvvəl mənə belə gəldi ki, bu məqalə müəllifin "Ömür kitabı"nın davamıdır. Sonra huşa gəldim, gördüm ki, kitab bizə tarixi müqəddəratımızı öyrədir, məqalə isə müasirliyimizdən acı şikayətdir. Öz-özümü yoxlamaq istədim. "Əks-sədam ədalətlidirmi?" deyərək öz-özümə sual və öz-özümə cavab verdim: "Bəlkə bir başqa adam bu məqalənin – "bu sənin xalqındır" fəryadlı məqaləni məndən daha yaxşı, daha yüksək qiymətləndirərdi, amma mən bundan güclü yaza bilmədim, çünki bu məqalə, bu məqalədə aşkarlıq və gördüyüm acı həqiqətlər məni sarsıtmışdır. Eşq olsun müəllifinə! O, xalqın, milyonların ruhuna, qəlbinə bu qədər doğru, bu qədər ədalətli və həqiqi yolla nüfuz etmişdir. Öz-özümə yenə bir sual: Görəsən, Sabir Rüstəmxanlı bu xəlqpərəstliyindən yanacaqmı? Bu suala özüm də özümə Nazim Hikmətdən ilham alaraq cavab verdim: "Mən yanmasam, sən yanmasan, biz yanmasaq, necə çıxar qaranlıqlar aydınlığa?"

Üstümüzə peydərpey yağan yalanlar, böhtanlar, təhqirlər, hədələr yağışının qabağını kim alar? Necə qələbə çalar ədalət məzalimə, həqiqət iftiraya? İnanıram ki, bütün oxucular və oxuyanı dinləyənlər Sabir Rüstəmxanlının bu məqaləsinin altına qol çəkmiş, ondakı fikirlərin doğru, ədalətli olduğunu ürəklə təsdiq etmişdir.

– Kimdir bu fəlakətlərimizin günahkarları? Bu cinayətləri törə-dənlər kimlərdir?

– Mənəmlik sahibləri! Şəxsi mənfəət zərbəçiləri!

Görün S. Rüstəmxanlı nə deyir: Doğum evindən qəbiristana kimi dəhşətli bir alver gedir. Dünyaya gəlişinə də pul alırlar, qəbir yerinə də. Torpağı talayanlar millətin ruhunu da talamağa çalışıblar. Adımız da, əlifbamız da, sərvətimiz də əldən gedib. Bürokrat idarə aparatı ürəklərə köləlik toxumu səpib... Allah heç düşməni də bizim süründürməçilikdə tayı-bərabəri olmayan idarələrimizə möhtac eləməsin. Öz paytaxtımız özümüzə yad olan bir şəhərə çevrilib.

Dil! Hələ dilimiz. Ən yaman dərd dilimizin göz görə xəstələnməsi, iflicə uğramasıdır. Dilin xəstəliyi millətin xəstəliyidir. Dilin ölməyi millətin ölməyidir. Ana dilinə xor baxanlar doğma analarına xor baxmış olurlar, bu cinayətlərin ən böyüyüdür.

Bəhey, oyanın! Siz də bu millətin oğlusunuz. Açın bu bağlı qapıları! Açın iş və qəbul qapılarınızı! Ürəklərinizin və vicdanlarınızın qapılarını açın. Bu qapıların arxasında ömrü çürüyən sizi dünyaya gətirmiş doğma xalqımızdır.

***Əhsənlər sənə, ey bu məqalənin, bu dərdlərin müəllifi!***
***Afərinlər sənə, ey bu həqiqətlərin, bu iztirabların carçısı!***

Tarixin dialektikası göstərir ki, insan böyüdükcə onun dostları da artır, düşmənləri də. Sənin millətin, xalqın istəyir ki, getdikcə sənin dostların çoxalsın, düşmənlərin kor olsun.

**Əkrəm Cəfər,**
**28.10.1989.**

## "QARABAĞA DÖNÜŞ" POEMASI HAQQINDA

İnsanda vətən təfəkkürünü yaradan duyğular, onun üzərində yaşadığı torpaqla olan münasibətindəki sirli bağlardır. Bir baharda açan çiçək, dağ yamacından axan bulaqlar, bir atanın qəbri, üzərindən keçdiyimiz körpü, danışdığımız dil, hətta sevgimizi dilə gətirən bağrı yanıq bir mahnı bizi torpağa, yurda bağlayır. O bağlar tel-tel qopmağa başladığında, ya da qəsdən qoparıldıqda torpaq ilə insanı birləşdirən duyğular da zamanın çarxında əriyib yox olur... Şübhəsiz ki, hər hansı coğrafi yeri vətən edən bir millətin o torpaqda yaratdığı, qoruyub saxladığı milli və mənəvi dəyərləridir, onun mədəniyyətidir. Bunlar torpağın bir millətə aid olduğunun sənədidir, torpağa vurulan möhürdür. Bəlkə də buna görə bir ölkənin bir hissəsi işğal edilsə belə, bu hərbi üstünlük işğalçıya o torpaqlara sahib olmaq imkanı tanıya bilməz. Məhz buna görə də işğalçı qüvvələr vətənin əsl sahibləri ilə zəbt olunmuş torpaqlarda yaşayanlar arasında telləri qoparmaq istəyirlər ki, gələcək nəsillər bu torpaqları unutsunlar. Əvvəlcə böyük etnik təmizləmə aparmağa başlayırlar, sonra isə sürgün etdikləri xalqın yaratdığı milli-mənəvi dəyərləri bir-bir yox edib silməyə çalışırlar. Beləliklə, maksimum üç nəsildən sonra o torpaqları sonuncu dəfə görənlər, o vətəni vətən edənlər yurd həsrəti ilə bu dünyadan köçüb gedər, həm də yeni nəsillərin ata-babalarının yaşadıqları torpaqlar arasındakı gizli bağlar qırıl-

mağa başlayacaqdır. Son əsrdə Balkanlarda, Axıskada, Krımda, Kərkükdə, xüsusilə Qarabağda türklərə qarşı edilənlər də budur. Vətən torpağıyla millət arasında fiziki bağlar qırılanda yeni bir güc meydana girər. Bu güc millətlə vətən arasında könül bağını, ruh bağını qurar; yeni nəsillərin tarixi şüurunu, millət, vətən yaddaşını dirildər, onların əzmini, səyini, mübarizəsini ayaqda saxlayar. Bu gücün adı, əlbəttə ki, sözdür. Sözü göylərə qanadlandıran da şeirin, sənətin, ədəbiyyatın qüdrətidir... Aradan illər keçsə də, torpağı qanıyla sulayaraq Qarabağa addımlayan, ölümü heçə sayaraq Şuşanın əlçatmaz qayalarına yalın əllə dırmanan, bayrağı tez bir zamanda zirvəyə sancmaq üçün yarışan yeni nəsilləri heç görmədikləri doğma torpaqlarına böyük bir sevgiylə aparan da bax bu gücdür, sözün, ədəbiyyatın, sənətin gücüdür... Bizim dastanlarımız da xalqımızın həyatında baş verən böyük fəlakətlərdən və ya qələbələrdən sonra yaranmışdır. O dastanlar xalqı sözlə yaşadıb, itirilənlərin geri qazanılması üçün mübarizədə millətə böyük ruh yüksəkliyi vermişdir. Azərbaycanın yüz illik tarixinə, xüsusən də Birinci Qarabağ müharibəsindən sonrakı illərə bu prizmadan nəzər saldıqda yuxarıda dediklərimizin tarixi həqiqət olduğunu görürük. Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Əhməd Cavad, Hüseyn Cavid, Almas İldırım və başqaları XX əsrin əvvəllərində Azərbaycanda istiqlal məşəlini alovlandıran ilk söz və fikir süvariləri idilər. Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi qısamüddətli olsa da, o, yeni nəsillərin ardınca böyük bir ideya qoymuşdu: “Bir kərə yüksələn bayraq, bir daha enməz!”. Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz, Məmməd Aslan, Məmməd İsmayıl, Musa Yaqub, Sabir Rüstəmxanlı kimi bir çox söz süvarilərinin arxasınca milyonlarla insanı Azadlıq meydanına

gətirən bu öncül nəslin qaldırdığı söz bayrağı idi. Onların bir neçəsi yaralı vətənin ürəyi yaralı şairləri kimi yurd həsrətilə dünyadan köçdülər. Ancaq bu da bir həqiqətdir ki, onlar bu gün Şuşada dalğalanan üçrəngli bayrağı o sıldırım qayalara sancacaq nəsillərin öz sözləri ilə yaratdıqları milli şüurun əsəri olacağına inanırdılar. Əminəm ki, Qarabağda dalğalanan Azərbaycan bayraqları vətən havalarının müşayiətilə onların ruhlarına azadlıq nəğmələri oxuyur... 1960-cı illərdən etibarən Azərbaycanda söz bayrağını təhvil alan nəslin içində Sabir Rüstəmxanlının xüsusi yeri vardır. Ona görə də onun Azərbaycan tarixinin son əlli ilində söz və siyasətlə apardığı mübarizəsini fərqli tərəfləri ilə qiymətləndirmək bir zərurətdir. O, hər şeydən əvvəl köklü tarixə, dil şüuruna malik, milli düşüncəsi yaşadığı torpaqları çoxdan aşmış, qəlbi böyük və əbədi yurd arzusu ilə döyünən bir şairdir. Rejim qorxusunun sözə sirayət etdiyi illərdə də haqq sözünün qüdrətinə sığınaraq fikirləri və həqiqəti cəsarətlə dilə gətirmişdir. Çünki o, ömrü boyu sözün arxasında məmurların deyil, xalqın dayandığını dərk edən bir ziyalıdır. Millətin nəbzini çox yaxşı duyan şairin ürəyi onun hər zaman doğru yerdə olmasına səbəb olmuşdur. Əminəm ki, onu söz aləmindən siyasətə gətirən də məhz bu düşüncələr olmuşdur. İllər boyu şeir, nəsr, müxtəlif məqalələrlə ifadə etdiyi milli hisslərə, azadlığa olan sarsılmaz inamı onu Azərbaycanı müstəqilliyə aparan Meydan Hərəkatının öncüllərindən və liderlərindən birinə çevirmişdir. Beləcə, sözlərinin millətin damarlarında coşduğunu görən şair suların bulanıq olduğu, vətənin başını qara buludlar aldığı illərdə azadlığa doğru addımlayan xalqın ön sıralarında öz yerini tutmuşdu. Mahiyyətində şair ömrünə sığmayan böyük əzabları, bəlaları, xoşbəxtlikləri və sevincləri özündə cəmləyən bir taleyi yaşayan Sabir

Rüstəmxanlı Meydan Hərəkatının od çəmbərindən, 20 Yanvar faciəsinin alovundan, 1918-ci ildə Bakı səmalarına qaldırılan, lakin 1920-ci ildə endirilən bayrağı yenidən Bakının başı üstündə dalğalandıran, Müstəqil Azərbaycanı bərpa edən mücahidlər sırasında da hər zaman ön cərgədə olmuşdur. O, yoldaşları ilə birlikdə Azadlıq bayrağını qaldıran zəfər şairinin taleyini də, torpaqlarının beşdə birinin işğal altında olduğu, soydaşlarının sürgün edildiyi yaralı vətənin məğlub şairinin taleyini də eyni zamanda yaşamışdır. Yuxarıda qeyd etdiyim kimi, məğlubiyyətlərdən və fəlakətlərdən sonra milləti böyük qələbələrə hazırlayanlar millətin söz süvariləridir. Sabir Rüstəmxanlı çox yaxşı bilirdi ki, geri çəkilmək hələ məğlubiyyət deyildir, Boz Qurdun irəli həmlə etməsi üçün arxaya söykənib irəli atılması lazım idi. O, bu müvəqqəti geri çəkilmə dönəmində həm siyasi səhnədə, həm də söz meydanında "azad vətən", "bütöv vətən" uğrunda mübarizəsinə davam etmişdir. Milli və beynəlxalq, rəsmi və qeyri-rəsmi konfranslarda Azərbaycanın haqq səsini dünyaya eşitdirməyə çalışmış; Əvvəl yazdığı milli ruhlu şeirlərinə "Ömür kitabı", "Xətai Yurdu", "Göy tanrı" əsərlərinə, "Ölüm Zirvəsi - Cavad Xan", "Difai fədailəri" kimi romanlarını əlavə edərək, keçmişlə bugünü qarşılaşdırmış, Azərbaycan igidlərinin şanlı döyüş yolunu göstərmiş, gənc nəsillərin qəhrəmanlıq ruhunu yüksək etməyə çalışmışdır. Cavad xanın Gəncədəki böyük müqaviməti haqqında oxuyan yeni nəsillər, şübhəsiz ki, Şuşanın qala divarları kimi ucalan ölüm zirvəsinə yalın əllə qalxacaqdılar; "Difai fədailərini" oxuyanlar da düşməni onun silahı ilə güllələyəcəkdi... 2020-ci ilin noyabr ayında Qarabağın düşmən işğalından azad edilməsi ilə nəticələnən "44 günlük Vətən Müharibəsi", şübhəsiz ki, Azərbaycanın son iki yüz illik tarixində irəliyə doğru atdığı ən möhtəşəm addım-

dır. Biz qardaş Azərbaycanın bu şanlı savaşında: O torpaqlardan balaca qız ikən sürgün edilən, lakin sonradan yoxsulluq içində böyütdüyü oğlunu cəbhəyə yola salan və bayrağa sarılan şəhidinin tabutunu "Vətən sağ olsun!" deyərək daşıyan anaları da gördük. Qarabağdan analarının, nənələrinin qucağında pərişan halda çıxan, lakin illər sonra tanklara minib məğrurluqla o yerlərə geri dönüb torpağı öpüb əzizləyərək sanki o torpaqlara səslənib: "Gəldik... Ümidin bitdiyi yerdə türkün qüdrəti başlayar!" deyən ərləri gördük. Bu qələbə ilk növbədə Azərbaycan liderinin, Azərbaycan ordusunun və Azərbaycan xalqının qələbəsidir. Ancaq şübhəsiz ki, bu böyük qələbə həm də bu insanlara, bu analara, igid əsgərlərə vətən sevgisini, millət ruhunu aşılayan sözün də qələbəsidir. Azərbaycanda söz-söz bu zəfər yolunu yaradan şairlərdən, ziyalılardan, siyasi liderlərdən biri də Sabir Rüstəmxanlıdır. Bunu da etiraf etmək lazımdır ki, ona "Qarabağa qayıdış" poemasını yazdıran da məhz bu millətin ruhudur... Sabir Rüstəmxanlı 70 illik yubileyi ilə bağlı "Koroğlu" jurnalının xüsusi buraxılışında dərc olunmuş müsahibəsində verdiyim suala belə cavab vermişdi: "İmdat bəy, məğlubiyyəti yazmaq çox çətindir...". Əlbəttə, məğlubiyyətlər yenilmək demək deyildir, çoxlu qələbələr və qəhrəmanlıqları özündə ehtiva edir. Bu qəhrəmanlıqlar gələcək mübarizənin işarə alovudur. Türklər Birinci Dünya müharibəsində məğlub olsalar da, "Çanaqqala dastanını" döyüş meydanında yazmışdılar. Qurtuluş Savaşının əzmkarlığına və səyinə yol açan oradakı möhtəşəm dirənişdir, tarixə qızıl hərflərlə yazılan zəfərdir. "Çanaqqala Şəhidləri" poemasını yazan, daha sonra "söz"lə Anadoluda mübarizəsini davam etdirən Mehmet Akif Ərsoya tale "İstiqlal Marşını" yazmağı da nəsib etmişdi. M.Akif Ərsoy kimi məğlubiyyət zamanında sözü ağrı-acı ilə yazsa da, Al-